*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**





# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 aprel 2017-ci il № 31 (2148) Qiymәti 25 qәpik


## İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardımın verilməsi ilə bağlı sərəncam imzalanıb

*Aprelin 24-də Azərbaycan Prezidenti İlham Əliyev 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, sərəncama əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bununla əlaqədar, Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 7.2 milyon manat ayrılıb.

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Ordu quruculuğunun ölkəmizin müstəqillik illərində belə sürətlə inkişafı, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz fəxr edirik ki, bizim güclü ordumuz var.*



# Qartal baxışlılar

*...Yazın ılıq nəfəsi duyulmaqdadı. İstiqamətimiz dağlara - səngərdə sinəsini düşmənə sipər etmiş Azərbaycan əsgərinin yanınadı. Dolanbac yollar, cərgələnmiş evlər bir-birini əvəz edir. Adama elə gəlir ki, yollar bitib tükənməyəcək. Dağ havası qəlbimdə qəribə hisslər oyadır. Bu diyarı, onun füsunkar təbiətini, dağlarının qarlı zirvələrini, bənzərsiz çəmənlərini, gur çaylarını sevmək üçün burada doğulmaq şərt deyil, cəmi bir dəfə görməklə, o yerlərə həmişəlik vurulursan. İlahi bu yerləri sanki ovqatının ən gözəl çağlarında yaradıb.*

Zabit Süleyman Vəliyevin müşayiəti ilə dağa, yüksəkliyə qalxmağımız o qədər də asan başa gəlmir. Cığırla irəliləyəndə bizi salamlayan illərin sınağından çıxmış ağacların kökləri, adda-budda qar topaları, arxada qoyduğumuz ucu-bucağı görünməyən yaşıl dərələr, gözəl mənzərələr imkan vermir ki, çətinliyi hiss edək. İnsan qarşıya qoyduğu məqsədə asanlıqla nail olanda o qədər də fərqinə varmır. Çətinliklə əldə edilən nailiyyət insana daha şirin gəlir. Mənə elə gəlir ki, bu yolu göz qırpımında arxada qoyduq. Bilmirəm, nədən irəli gəlir, fərqli situasiyanın bəxş etdiyi sevincli dəqiqələrdənmi və ya Azərbaycan əsgəri ilə tez görüşmək istəyindənmi? Onu deyə bilərəm ki, çətin dağ yolunu qət etmək mənə yazmağa çətinlik çəkdiyim sevincli duyğular bəxş etdi.

Nəhayət, bölüyün min beş yüz metr yüksəklikdə yerləşən dayaq məntəqəsinə çatırıq. Bölük komandiri kapitan Ramin Quliyevlə birgə şəxsi heyətlə görüşürük.

**(Ardı 3-cü səhifədə)**

# Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yaranmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib



*Müdafiə Nazirliyinin rəhbər heyəti Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yaranmasının 25-ci ildönümünə həsr olunmuş təntənəli tədbirdə iştirak edib.*

Əvvəlcə tədbir iştirakçıları hospitalın həyətində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, müasir Azərbaycan dövlətinin banisinin əziz xatirəsini yad ediblər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra ulu öndər Heydər Əliyevin, Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hospitalın yaranma tarixindən, keçdiyi uğurlu və şərəfli inkişaf yolundan danışan Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyev ölkəmizin ilk hərbi səhiyyə ocağının inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin misilsiz xidmətlərinin olduğunu deyib.

Tibbi heyətlə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov onları yubiley münasibətilə təbrik edərək Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrin hər bir sahəsində olduğu kimi hərbi tibb sahəsinin də sürətlə inkişaf etdiyini vurğulayıb.

Müdafiə naziri ötən ilin aprel ayında cəbhə xəttində baş vermiş döyüşləri, o cümlədən Ermənistanın daim vəziyyəti gərginləşdirmək məqsədilə



təxribatlar törətməsini xatırlayaraq hərbi tibb mütəxəssislərinin peşəkarlıqlarını artırmalarını, dərin biliklərə və geniş təcrübəyə malik olmalarını xüsusi qeyd edib.

Nazir Silahlı Qüvvələrin tibb heyətinə uğurlar diləyərək hərbi tibb müəssisələrinə müraciət edənlərə yüksək peşəkarlıq və qayğı ilə xidmətin göstərilməsinə dair tapşırıqlar verib.

Sonra səhiyyə sahəsində göstərdikləri xüsusi xidmətlərə görə Müdafiə nazirinin əmri ilə şəxsi heyətin bir qrupu təltif olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

*Medallı igidlərimiz*

# "Sağalıb xidmətə qayıdacam!"

*Təbiəti necə sevməyəsən? Həm də Lənkəranda! Dağları necə sevməyəsən? Bulaqların pıçıltısını, yarpaqların titrəyişini, çölün-çəmənin gülünü-çiçəyini, yaz yağışından sonra göy üzünə yayılan göyqurşağını necə sevməyəsən? Təbiəti Ramin də sevirdi. Doğulduğu Hamarat kəndinin də, boya-başa çatdığı Kərgəlan kəndinin də, təhsil aldığı Lüvəsər kəndinin də təbiətinin heyranlarındanıydı. Təbiət ona qətiyyət öyrətmişdi, dözümlülük öyrətmişdi...*




Böyük qardaşlarından eşitdikləri də, ata-anasının, müəllimlərinin dedikləri təbiətdən öyrəndiklərinin davamıydı elə bil. Təbiət Raminin xarakterini müəyyənləşdirmiş, formalaşdırmışdı. Bunlar ömrün Vətən üçün yaşanılmalı olduğunu varlığıyla dərk edənlərdəniydi. Körpəliyində evdə də, məktəbdə də ermənilərin torpaqlarımızı işğal etdiyini, ermənilərin təxribatlarının qarşısını alan əsgərlərimizin mərdliklə döyüşdüyünü, ... eşidirdi. Digər həmyaşıdları kimi, onun da Vətən sevgisi kükrəyirdi, kükrəyən sevgisi onu hərbi xidmətə səsləyirdi. Hərbi xidmətə belə arzulanan xarakterlə yola düşəcəkdi; Ramin Hümmətov 2003-cü ildə hərbi xidmətə çağırıldı...

Rabitə üzrə təhsil aldı. Az sonra divizionda rabitə üzrə manqa komandiri təyin olundu...

...Hərbi xidmətdən sonra bir müddət ata qayğılarına ortaq oldu. Hərdən əli işə yatmırdı; düşüncələri səngərlərdə qalıbmış Raminin...

Ürəyindən keçənləri heç kimə bildirmirdi. Bu, tərəddüd deyildi, istəyini özü sınağa çəkirdi, Vətənə ad olan istəyinin davamlı olub-olmadığını qətiləşdirmək istəyirdi. Televiziyadan eşitdiyi informasiyalar istəyini dönməzləşdirdi: - Hərbi xidmətə gedəcəm! Bu gözlənilməz qərar ailədə çaşqınlıq yaratmadı. Ata-anası da, qardaşları da Raminin istəyinə xeyir-dua verdi...

Ramin Hümmətov müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ön xətdə xidmətə başladı. Yenidən hərbi mundir, yenidən rabitə aparatları, yenidən Vətənə xidmət...

Müharibə şəraitində, həm də ön xətdə rabitənin əhəmiyyəti danılmazdır. Ramin həqiqi hərbi xidmətdə olanda rabitə aparatlarının işləmə prinsiplərini, istismar xüsusiyyətlərini yaxşı öyrənmişdi, gərəkli təcrübəsi də vardı. Yenidən xidmətə başlayanda neçə il əvvəl öyrəndiklərini böyük məsuliyyətlə, böyük həvəslə təkmilləşdirdi. Az müddətdən sonra hərbi hissədə bacarıqlı rabitəçi kimi tanındı...



...2016-cı il martın sonları idi. Son günlər atəşkəsi daha intensiv şəkildə pozan erməni silahlı birləşmələri martın son günündə, aprelin əvvəllərində daha genişmiqyaslı təxribat törətmək istədi. Ordu hissələrimiz bu təxribatın qarşısını aldı, əks-hücuma keçdi...

Əks-hücum haqqında məlumatı, silahların, sursatların maşınlara yüklənməsi, toplardan atəş açılması əmrini şəxsi heyətə çavuş Ramin Hümmətov çatdırdı...

Döyüşdə komandirin əmrlərinin ayrı-ayrı bölmələrə vaxtında və anlaşıqlı şəkildə çatdırılması da əməliyyatın gedişinə təsir göstərir; əməliyyatın gedişində hər əmr olduqca əhəmiyyətlidir. Çavuş Ramin Hümmətov bütün mövcud vasitə və üsullardan istifadə etməklə əmrləri müvafiq kiçik komandirlərə vaxtında çatdırırdı...

...Artilleriyaçılarımız düşmənin atəş mövqelərini, strateji məntəqələrini atəşə tutdu...

Piyadalarımız hücuma keçdi...

Lələtəpənin yaxınlığındaydılar. Binoklla müşahidə aparılırdı. Elə bu an diviziya komandirinin əmri eşidildi: yerə yatın! - binoklla onlara atəş açmağa hazırlaşan snayperi görübmüş...

...Yaxınlıqlarına mərmilər düşürdü. Yer titrədi elə bil.

Mərmilər çavuş Ramin Hümmətovun hər iki ayağını yaraladı. Ona ilk yardımı zabit İlqar Məmmədov göstərdi - döyüşün içindən çıxartdı. Yeriyə bilmirdi. Təcili təxliyə etdilər - ayaqlarında çoxsaylı qəlpələr vardı...

Sağ ayağı fəaliyyətini itirdi...

Çavuş Ramin Hümmətov "Şücaətə görə" medalı ilə təltif edilib...

Sevinci, kədəri, qəhəri də gizlətmək mümkün deyil. Bəzi məqamlarda baxışlar bu iki duyğunu qoşa yaşadır; sevincdə kədər, qəhər görünür, kədərdə, qəhərdə sevinc. Aprel döyüşlərinin ildönümü ərəfəsində Raminlə görüşəndə onun baxışlarından bunu sezdim. Sezdiyimi dedikləri təsdiqləyirdi: "Sağlamlığım bərpa olunsa, yenidən xidmətə qayıdaram. Böyük Qələbəni qazanacaq hərbçilərin sırasında olmaq istərdim".

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**25 aprel 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 115 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Voskevan, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Fərəhli və Kəmərli kəndlərində, Berd rayonunun Ayqedzor, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Qartal baxışlılar

(Əvvəli 1-ci səhifədə)



Taqım komandiri leytenant Novruz Novruzovla tanış oluram. Zabit söhbət zamanı bildirir ki, Vətən keşiyində dayanmaq onun hisslərinin ən alisinə çevrilib: "Fəqət bu ali hissi anlamından da çox... yaşamaq lazımdır. Bu hissi yaşamadan səngərin mahiyyətini lüğəti mənada əxz etmək olar. İndiki situasiyada belə hal Vətənə yetərli deyil, sözün həqiqi mənasında, qəbuledilməzdir. Ona görə də bütün zabitlərimiz əsgərlərimizə bu gün üçün ali bir məqsədə nail olmaq - torpaq və millət naminə xalqımızın Qələbəsini təmin etmək üçün, birlik və həmrəylik aşılayır. Onlar yaxşı bilir ki, tarixi qələbə mən və səndən yox, bizlərdən və müqəddəs birlikdən asılıdır".

Leytenant Novruz Novruzov Silahlı Qüvvələrimizin nail olduğu inkişaf nəticəsində cəmiyyətimizdə möhkəm birliyin yarandığını əminliklə qeyd etdi. "Aprel döyüşləri bu birliyi daha da möhkəmləndirdi: artıq tarixinə, keçmişinə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman keçsə də, heç kim bizi Vətən sevgimizdən məhrum edə bilməz. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub. Dörd gün ərzində ürəyimizdəki ümid qığılcımları, qisas hissi, birlik duyğusu sanki silkələndi. Bir olduq. Birliyin fərqinə vardıq. Əsgərlərimiz böyük ruh yüksəkliyi ilə hər an önə atılmağa hazır idilər. Bir sözlə, inamımızın, ümidimizin, mübarizliyimizin qüdrətinin şahidi olduq".

Əməkdaşımız çavuş Namiq Pənahov diqqətimizi qarlı zirvədə cövlan edən tənha qartala yönəldir. Qartal yavaş-yavaş zirvədə qanad salır. Sanki zirvədən Kəlbəcəri, Şuşanı, Xankəndini, Laçını, işğaldan azad edəcəyimiz digər torpaqlarımızı nəzarətdə saxlayır.

Uçuşu Qarabağa, Şuşaya sarıdı sanki. Ətrafı sükutla izləyir. Birdən...qiyyə çəkir. Səsi dağları, daşları lərzəyə salır. Bu səs bir gün də Qələbə müjdəmizi, sanki uca dağlara çatdıracaq. O səsi sanki ermənilərə bir mesaj bilirəm. Qartal baxışlı əsgərlərimizin baxışlarından "Torpaqlarımızı son qarışına kimi geri qaytaracağıq" fikirləri oxunur.

Kapitan Ramin Quliyev deyir ki, o dağlar heç zaman qartalsız olmur. Axı dağın o üzü həsrətində olduğumuz Kəlbəcərdi. Bölük komandiri söhbətimizin bu yerində İohann Hötenin "Qartal havada havaya, zirvədə zirvəyə alışır" sözünü xatırladaraq bildirir ki, zirvədə olmaq hər kəsə, hər canlıya nəsib olmur.

Hərbi qulluğa Qax rayonundan gəlmiş Nahid Əliyevi bir anlıq xidmətindən ayırıb söhbət etməyə nail oluruq. "Xidmət etdiyim 9 ay müddətində pulemyotçu vəzifəsinin sirlərinə yiyələnmişəm. Üzərimə düşən bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışıram. Qarşıdakı dağın o tərəfi Kəlbəcər rayonudu. Kəlbəcərin də, digər ərazilərimizin də işğaldan azad ediləcəyi günün həsrətindəyəm. Kaş ki, bu qələbəmiz xidmətdə olduğum vaxtlarda gerçəkləşəydi..."

Əsgər Elmar Ruhullazadə düşməndən daha uzaq məsafədə dayandığından təəssüf hissi keçirir: "3 qardaşım məndən əvvəl ön xətdə qulluq ediblər - Füzulidə, Ağdamda və Tərtərdə. Təəssüf edirəm ki, düşmənlə daha yaxın təmas nöqtəsində deyiləm. Mübariz kimi, Çingiz kimi qəhrəman oğullarımızın davamçısı olmaq və Qarabağın Musiqi Konservatoriyası adlandırılan Şuşanı görmək ən böyük arzumdur. Yaxşı bilirəm ki, müharibədə döyüş də var, şəhidlik də. Bilirəm ki, döyüşdə hər an şəhid də ola bilərəm. Ancaq Vətənə görə döyüşürəm, torpaqlarımız üçün döyüşürəm, ölümdən qorxmadan döyüşürəm. Mübariz, Çingiz kimi oğullar şəhidliyi özləri seçmişdilər. Vətən üçün, xidmətdə olan əsgərlərə, çağırışçılara vəsiyyət kimi seçmişdilər. Onların şəhidliyi bizə də nümunədir".

- Hərbi xidmət mənə mübariz və ədalətli olmaq hissini aşıladı, - deyə əsgər Həsən Hüseynzadə söhbətə qoşulur. - Valideynlərimin aşıladığı böyüyə və kiçiyə hörmətlə yanaşmaq fikirləri burada qısa vaxtda hörmət qazanmağıma yardımçı oldu. Qarşılığında zabitlərdən, gizirlərdən, tabe olduğum digər hərbi qulluqçulardan və əsgər yoldaşlarımdan qayğı və diqqət gördüm. Tərxis olunduqdan sonra gizirlik kursuna yazılmaq və Vətənimə xidmətimi davam etdirmək istəyirəm.

Səngərdə düşmənlə üz-üzə dayanmaq şərəfinə nail olan əsgərlərdən Coşqun Qasımlı, Həsən Məmmədov, Qabil Nəsirov, Bahadur Əliyev, Təyyar Nurizadə, Rəşad Abbasov, Musa Mürsəlov və başqaları ilə də həmsöhbət olmaq imkanı qazanıram. Onlar da Vətən torpaqlarının müdafiəsində ayıq-ayıq dayanaraq Ali Baş Komandanımızın əmrini səbirsizliklə gözləyirlər.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



# Azərbaycan-Türkiyə təlimlərində istifadə ediləcək silahların və texnikanın nümayişi keçirilib

*Mayın 1-dən 5-dək keçiriləcək Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimlərində istifadə olunacaq silahların, hərbi və xüsusi texnika nümunələrinin sərgisi keçirilib.*

Təcrübəli mütəxəssislər tərəfindən şəxsi heyətə hərbi texnikanın istismarı, tətbiqi, döyüş və digər imkanları barədə məlumatlar çatdırılıb.

Qeyd edək ki, iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən birgə təlimlərdə şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Vətənimin çağırışına həmişə hazıram"

*Zabit Vüqar Əliyevlə təlim keçən şəxsi heyətin yanına yollandıq. Yol boyu zabit bildirir ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Dərs planına əsasən, keçirilən təlim-məşqlərdən sonra şəxsi heyətin döyüş ruhu daha da artır.*



Komandir heyəti dərslərin səmərəli keçirilməsi üçün mövcud olan bütün imkan və vasitələrdən istifadə edirdi. Keçən müddət ərzində minaatan qurğusunun sirlərinə dərindən yiyələnən əsgərlər dağların zirvəsində zabitlərin nəzarəti altında təlim keçirdilər. Heyət nəfərləri cəld və çevik hərəkətlərlə tapşırıqları yerinə yetirir, təyin olunmuş vaxtda minaatan qurğusunu "döyüş" və "səfər" vəziyyətinə gətirirdilər. Öz ixtisaslarını mükəmməl bildikləri üçün əsgərlər inamla hərəkət edirdilər.

- Təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, şəxsi heyət minaatanın quruluşunu, taktiki-texniki xüsusiyyətlərini öyrənir və praktiki vərdişlərini artırırlar, - deyə məşğələ rəhbəri kiçik çavuş Fuad Bənnayev sözə başladı. - Havanın isti-soyuq, qarlı-şaxtalı olması bizi təlimlərdən saxlaya bilməz. Hərbi hissənin yerləşdiyi ərazi təbiətinə görə sərtdir. Burada havalar tez-tez dəyişir. Artıq əsgərlərimiz belə şəraitə alışıblar. İnanıram ki, bu gün təlimlərdə qazanılan təcrübə və peşəkarlıq sabah əsgərlərimizə döyüş meydanında uğurlar gətirəcək.

- Zabitlərin üzərinə düşən başlıca vəzifələrdən biri də gənc əsgərlərimizə ən qısa vaxtda hərbi bilik və döyüş vərdişləri öyrətməkdir, - deyə baş leytenant Ağadadaş Salmanov bizimlə həmsöhbət oldu. - Xidməti vəzifəmizə məsuliyyət və diqqətlə yanaşırıq. Çalışırıq ki, qısa müddət ərzində heyət nəfərlərinə minaatan qurğusunun sirlərini öyrədək.

Zabit təlimdə fərqlənən əsgərlərin də adlarını çəkdi. Qeyd etdi ki, əsgərlərin hamısı xidməti vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər. "Onların hər birinin haqqında xoş söz demək olar. Bu gün nümunəvi xidməti ilə seçilən heyət nəfərlərindən İlkin Xəlilov, İsmayıl Zəkiyev və Şəmistan Məmmədovun adlarını çəkmək istərdim. Bu əsgərlər, bir qayda olaraq, həm məşğələlərdə fəal iştirak edir, həm də döyüş tapşırıqlarını bacarıqla yerinə yetirirlər. Belə bacarıqlı və vətənpərvər övladlarla fəxr edirik.

- Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək qürurvericidir, - əsgər İlkin Xəlilov dedi: - Ordu sıralarına gəldiyim ilk günlərdən məşğələlərdə fəal iştirak edirəm. Öyrəndiklərimə görə komandirlərimə minnətdaram. Xidmətimin xeyli hissəsi arxada qalıb. Bir müddətdən sonra əsgər dostlarımdan və komandirlərimdən ayrılıb doğmalarımın yanına qayıdacağam. Xidmətim ərzində hərbi biliklərə və döyüş vərdişlərinə yiyələndim. Ordu sıralarından tərxis olunduqdan sonra da, Vətənimin çağırışına həmişə hazır olacağam.

Məşğələ öz axarı ilə davam edir. Heyət nəfərləri hər bir tapşırığı məsuliyyətlə yerinə yetirirlər. Döyüş hazırlığı yüksək olan əsgərlərdən xoş təəssüratlarla ayrıldım. Sabahkı döyüşlərdə qələbəmizin təminatçısı olan əsgərlərimiz torpaqlarımızı işğaldan azad edəcək.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda növbəti buraxılış

*Döyüş bayrağı sıra meydanına gətirilib və Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra çıxışlar olub.*



Mərasimdə zabitlərdən Mənsim Əhmədov çıxış edərək bildirib ki, Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Təbii ki, bütün bunlar da hərb işinə verilən Muxtar Respublikada göstərilən diqqətdən xəbər verir.

Mərasimdə məzunlar adından baş leytenant Fərhad Camalov söz alıb. "Biz hərbi qulluqçular işğal altında olan torpaqlarımızı azad etməyə və şəhidlərimizin qisasını almağa hər an hazırıq. Zabit heyətinin təkmilləşdirilməsi kursunda əldə etdiyimiz taktiki bilikləri uğurla tətbiq edəcək və Silahlı Qüvvələrimizin peşəkarlığının artırılmasında bizə öyrədilənləri daim rəhbər tutacağıq.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev zabit heyətinin təkmilləşdirilməsi kursunu müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün uğurla davam etdirilir. "Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan hərbi hissələrin maddi-texniki təminatı möhkəmlənir, silah arsenalı genişlənir, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyəsi hər keçən gün daha da artır. Bütün bunların nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun varlığı qədim diyarın malik olduğu hərbi qüdrəti özündə ehtiva edərək düşmənin göz dağına çevrilib".

Kursu daha yüksək qiymətlərlə başa vuran zabitlərə Əlahiddə Ümumqoşun Ordu Komandanı tərəfindən sertifikatlar təqdim edilib. Məzunların tribuna önündən təntənəli keçidi ilə mərasim başa çatıb.

**Leytenant Nəriman NƏCƏFOV,**
**foto Gündüz QASIMOVUNDUR**

# "Qəhrəmanlarımız bizim qan yaddaşımızdır" layihəsinin icrasına start verilib

"Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi (TUMİB) Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Qəhrəmanlarımız bizim qan yaddaşımızdır" layihəsinin icrasına başlayıb.

TUMİB-dən AZƏRTAC-a bildiriblər ki, layihənin məqsədi Bakı, Tovuz, Cəlilabad və Quba şəhərlərində yaşayan yeniyetmə və gənclər arasında milli qəhrəmanlarımızın və ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş Vətən oğullarının tanıdılmasıdır.

Layihə çərçivəsində həmin şəhərlərdə yeniyetmə və gənclərin iştirakı ilə konfranslar və görüşlər keçiriləcək, onlara vətənpərvərlik hissləri aşılanacaq.

# "Erməni soyqırımı" işğalçılıq ideyasıdır

Bütün dünyada qondarma "erməni soyqırımı"nı təbliğ edən erməni millətçiləri nə üçünsə tarixçilərin arxivləri açmaq, dünyaya real tarixi faktları göstərmək çağırışlarına məhəl qoymurlar. Təbii ki, bu, onlara sərf etmir, çünki arxiv sənədləri "erməni soyqırımı" haqqında yalançı faktları altüst edəcəkdir.

XIX əsrin ikinci yarısında Türkiyədə "erməni məsələsi" ortaya atılmazdan əvvəl ermənilər Osmanlı tərkibində ən çox üstünlüklərə malik millətlərdən biri idi. Lakin Osmanlı imperiyasını zəiflətmək, ölkə daxilində münaqişə yaratmaq üçün xaricdə yaşayan ermənilər Türkiyə ərazisində erməni dövlətinin yaradılması məsələsini ortaya atdılar. Məqsədə çatmaq üçün Avropanı inandırmaq lazım idi ki, ölkədə qanlı toqquşmalar baş verir, ermənilər məhv edilir. Bu faktlar çar Rusiyasının generalmayoru, Rus Qafqaz Ordusunun qərargah rəisi Bolxotinovun raportunda da öz əksini tapıb. Beləliklə, erməni ideoloqları istəklərinə nail olmaq üçün öz soydaşlarına belə bir fikri aşılamağa başladılar: "Sadəcə qan tökmək lazımdı və ermənilər Avropanın köməyi ilə hər şey əldə edəcəklər".

Elə bunun ardınca ermənilərin "Hnçaq" və "Daşnaksütyun" kimi terror təşkilatları yaranır, Kukunyan, Serop və Andranik kimi quldurların rəhbərliyi altında türk kəndlərinə hücumlar təşkil edilir. Məqsəd isə gün kimi aydın idi: sadə ermənilərlə türkləri qanlı toqquşmalara təhrik etmək. Rus generalı daha sonra yazır ki, erməni terrorçuları istəklərinə nail olmaq üçün yüzlərlə erməni ailəsini qıraraq bunu türklərin törətdiyini bəyan edirdi. Türk əsgərləri günahsız ermənilərə qarşı silah işlətmədiyi halda, bunu erməni terrorçuları çox asanlıqla edirdilər. Lakin erməni millətçilərinin minlərlə insanın qanı bahasına Türkiyə ərazisində dövlət qurmaq planları ürəklərində qaldı.

Məqsədlərinə nail ola bilməyən daşnaklar öz planlarını Qafqazda reallaşdırmaq üçün səfərbər oldular. Rus generalı qeyd edirdi ki, erməni ideoloqları türklərlə müharibədə çar Rusiyasına kömək etmək adı ilə silahlanmağa başladılar. Bu silahlar Qafqazda əvvəlcə dinc azərbaycanlılara qarşı yönəldi. Andranikin rəhbərliyi altında Azərbaycan torpaqlarında görünməmiş qətliamlar və vəhşiliklər törədildi. 1905-1906-cı illərdə İrəvan və Gəncə quberniyalarında 200, Şuşa, Cəbrayıl və Zəngəzurda 75 azərbaycanlı kəndi erməni millətçiləri tərəfindən talan edildi, minlərlə insan öldürüldü. 1918-ci ilin mart-aprelində erməni daşnakları Bakı, Şamaxı, Quba və Lənkəranda 30 mindən çox azərbaycanlını qətlə yetirdi, 10 minlərlə insan öz torpaqlarından qovuldu. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürüldü, Şamaxıda 58 kənd dağıdıldı,1683-ü qadın və 965-i uşaq olmaqla 7 min nəfər məhv edildi. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211 kənd yerlə-yeksan olundu.

İndi erməni millətçiləri qondarma "erməni soyqırımı"nı hər il qabardaraq, "24 Aprel" şousunu nümayiş etdirməklə özlərini məzlum, yazıq əzablar görmüş xalq kimi göstərməyə çalışırlar. Amma bu məzlumluğun, yazıqlığın arxasında əsrlərdən bəri uzanan qanlı əllər dayanır. Artıq bütün dünyaya məlumdur ki, qondarma "erməni soyqırımı" böyük siyasətdə həm alət, həm də işğalçılıq ideyasıdır.

**Hazırladı:**
**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Aprel döyüşləri bir daha göstərdi ki, ordumuz istənilən əməliyyatı uğurla həyata keçirməyə qadirdir




*Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Nəsimi rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə vətənpərvərlik və hərb tariximizin yeniyetmələr arasında təbliğ edilməsi istiqamətində silsilə tədbirlər keçirilir.*

Nəsimi rayonundakı İlyas Əfəndiyev adına Elitar Gimnaziyada aprel döyüşlərində şəhid olmuş əsgərlərin xatirəsinə həsr edilmiş "Aprel zəfəri" adlı tədbir keçirilib.

Tədbirdə çıxış edən gimnaziyanın direktoru Sevda Quliyeva aprel döyüşləri zamanı Azərbaycan Ordusunun qəhrəmanlığından danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndəsi Şahin Həsənli bildirib ki, 2016-cı ilin aprel döyüşləri zamanı milli ordumuzun hərbçiləri şəhidlik zirvəsinə yüksələrək öz canları və qanları hesabına hər birimizə qələbənin yollarını göstərdilər. O, torpaq uğrunda həyatını qurban verən əsgərlərimizin şəhidlik zirvəsinə ucaldıqlarını deyib.



Şəhid polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı Nəcibə Axundova və şəhid mayor Rasim Məmmədovun qardaşı Aslan Məmmədov çıxış edərək aprel döyüşləri zamanı Füzuli rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyinin azad edilməsindən danışıblar. Qeyd olunub ki, bu döyüşlərdə qəhrəmancasına şəhid olan əsgər və zabitlərimiz doğma Vətən torpaqlarının hər qarışının nə qədər əziz olduğunu öz canları hesabına sübut etdilər.

Tədbirdə Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı, Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə və digərləri bildiriblər ki, Azərbaycan dövləti aprel döyüşləri zamanı bir daha bütün dünyaya nümayiş etdirdi ki, işğalla heç zaman barışmayacaq və ordumuz lazım olan əməliyyatı uğurla həyata keçirməyə qadirdir. Çünki Azərbaycan Silahlı Qüvvələri hazırda qüdrətli, müasir silah və texnika ilə tam təmin olunmuş ordudur.

Sonra qonaqlar gimnaziyanın şagirdlərinin vətənpərvərlik mövzusunda hazırladıqları səhnəciyə və Müdafiə Nazirliyinin Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında kompozisiyaya tamaşa ediblər.

**AZƏRTAC**

Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq ƏLİYEV:

# Dövlətimizin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrin Baş Klinik Hospitalı regionun ən böyük hərbi tibb müəssisəsidir

*9 aprel 1992-ci ildə Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmri ilə SSRİ Silahlı Qüvvələrindən təhvil alınmış və 500 çarpayılıq çoxprofilli hospitalın bazasında yaradılmış Mərkəzi Hərbi Hospital 25 ildir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına, istefaya və ehtiyata buraxılmış zabitlərə, onların ailə üzvlərinə ixtisaslı və yüksək texnologiyalı tibbi yardım göstərir.*



Ötən illər ərzində hospitalın maddi-texniki bazası, müalicə-diaqnostika imkanları, kadr potensialı dəfələrlə artmış, Baş Klinik Hospital regionun ən böyük hərbi tibb müəssisəsinə çevrilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin Gülhanə Hərbi Tibb Akademiyasında olarkən söylədiyi "Bizim orduda da, bizim ölkədə də bu cür əzəmətli hərbi tibb müəssisəsi olacaqdır" fikri bu gün reallıqdır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Baş Klinik Hospitalın ikinci müalicə korpusunun açılışı zamanı demişdir: "Bu bina və burada quraşdırılmış avadanlıq, əlbəttə ki, dünya səviyyəsindədir. Dünyanın aparıcı klinikalarında olan şərait və texniki təchizat burada var. Burada çalışan mütəxəssislər də böyük peşəkarlığa malikdir. Xarici klinikalarda təlim keçmişlər. Görürəm ki, burada işləyənlərin əksəriyyəti gənclərdir. Bu da məni çox sevindirir. Çünki indi dünyada tibb elmi o qədər sürətlə inkişaf edir ki, bu inkişafı daim izləmək lazımdır".

Hospitalın birinci müalicə korpusu 2006-cı ildə, ikinci müalicə korpusu, psixiatriya və yoluxucu xəstəliklər bölmələrinin yeni binaları 2013-cü ildə istifadəyə verilmiş, çarpayı fondu 1000-ə çatdırılmışdır.

Hazırda hospitalda 6 şöbə, 39 müalicə-diaqnostika bölməsi fəaliyyət göstərir. Ərazidə abadlıq işləri görülmüş, yaşıllıq sahələri salınmışdır. Hospitalda müasir tibbi avtomobil parkı yaradılmışdır. Bölmələr tibb heyəti ilə komplektləşdirilmiş, beynəlxalq standartlara cavab verən tibbi cihaz və avadanlıqlarla təchiz edilmişdir.

4 blokun 10 əməliyyat otağında 19 cərrahi əməliyyatı eyni zamanda aparmaq mümkündür. Ürək-damar şöbəsində, göz xəstəlikləri bölməsində quraşdırılan avadanlıqlar istənilən mürəkkəb əməliyyatın aparılmasına imkan verir.

1500 kvadrat metr sahədə, 36 otaqda yerləşən laboratoriya şöbəsində ən müasir cihazlarla genetik, mikrobioloji, immunoloji, biokimyəvi və kliniki analizlərin aparılması mümkündür. Radiologiya bölməsində flüoroqrafiya, rentgen müayinə, kompüter tomoqrafiyası, maqnit-rezonans tomoqrafiya cihazları quraşdırılmışdır. Video-müşahidə otağında olan monitorlar vasitəsi ilə əməliyyat zallarından görüntülər nümayiş etdirilir, xəstənin yaxınları, eləcə də tibb sahəsində təhsil alanlar bu əməliyyatları istər birbaşa, istərsə də sonradan izləyə bilirlər.

Hərbi qulluqçuların ailə üzvlərinə və Silahlı Qüvvələrdə xidmət keçən qadın hərbi qulluqçulara akuşer-ginekoloji xidmətin göstərilməsi məqsədi ilə hospitalda müvafiq bölmə fəaliyyət göstərir.

Baş Klinik Hospitalın yeni tikilmiş müalicə korpuslarının ən müasir avadanlıqlarla təchiz edilməsi bu sahəyə göstərilən dövlət qayğısının nümunəsidir.

Ümummilli lider Heydər Əliyev və Prezident, Ali Baş Komandan İlham Əliyev bu hospitalın fəaliyyətini daim diqqət mərkəzində saxlamışlar. Ulu Öndərin 1993-cü ildə burada müalicə alan hərbçilərə baş çəkməsi, dövlətimizin başçısının isə, Baş Klinik Hospitalın birinci və ikinci müalicə korpuslarının açılışında iştirakı bunun əyani sübutudur.

Məhz ulu öndər Heydər Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində Azərbaycan hərbi sistemində xidmətin beynəlxalq standartlar səviyyəsində təşkilinin əsası qoyulmuşdur. "İnsanların sağlamlığı dövlət üçün prioritetdir", - deyən Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi qulluqçulara olan qayğısı, habelə ordu quruculuğu sahəsinin müasir dünya standartlarına uyğun təşkilinə dair qəbul etdiyi mühüm qərarlar şəxsi heyətin peşəkarlıq səviyyəsini artırmış, onların sosial müdafiəsini, yaşayış və iş şəraitini yaxşılaşdırmışdır. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının hazırkı səviyyəsi, hərbi qulluqçuların sağlamlığına və onların sosial məsələlərinin həllinə Azərbaycan dövlətinin həssaslıqla yanaşdığını nümayiş etdirir.

Birinci Qarabağ müharibəsi zamanı Mərkəzi Hərbi Hospitalın həkim və orta tibb heyəti öz vəzifə borcunu layiqincə yerinə yetirmişdi. Atəşkəsdən sonrakı illərdə də xəstəliklərin qarşısının alınması üçün tibb heyətinin gərgin əməyi tələb olundu. Məlumat üçün bildirim ki, hospital yarandığı dövrdən indiyədək yaralılara və xəstələnənlərə kifayət qədər yüksək tibbi yardım göstərilmişdir.

Hərbi tibb elminin inkişafı üçün Baş Klinik Hospitalda ciddi işlər görülmüşdür. Lakin son zamanlar bu imkanlar daha da genişlənmişdir. Silahlı Qüvvələrimizin inkişaf etmiş ölkələrlə ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlıq sahəsində apardığı uğurlu işlər, şübhəsiz ki, hərbi təbabətin inkişafına da təsirsiz ötüşmür. Onlarla hərbçi həkimimiz hər il müxtəlif xarici ölkələrdə elmi simpoziumlarda, beynəlxalq konfranslarda fəal iştirak edir, faydalı təcrübə mübadiləsi aparırlar. Cari ildə bu tədbirlərin ünvanı Yaponiya, Fransa, İngiltərə, Türkiyə, Hollandiya olmuşdur.

Qardaş Türkiyənin tibb müəssisələri ilə əlaqələrimiz çox yaxşıdır. Bu yaxınlarda mən Türkiyə Respublikasının Baş Qərargahında Silahlı Qüvvələrin Sağlıq Başqanı ilə görüşdüm, əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün faydalı söhbətlərimiz oldu. Hazırda Türkiyə Respublikası Silahlı Qüvvələri və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tibbi sahədə əməkdaşlıq sazişinin yeni layihəsi razılaşdırılma mərhələsindədir.

İranın və Gürcüstanın hərbi tibb müəssisələri ilə də işgüzar əlaqələr qurmaq üçün müəyyən addımlar atırıq. İran-Azərbaycan hərbi-tibbi əməkdaşlığının inkişaf etdirilməsi üçün İranın Azərbaycandakı hərbi attaşesi ilə, Gürcüstan Silahlı Qüvvələrinin Tibb İdarəsi rəisi ilə görüşmüşük, Türkiyə-Gürcüstan-Azərbaycan üçtərəfli görüşünün keçirilməsi üçün fəaliyyətlər davam etdirilir.

Beynəlxalq Hərbi Tibb Komitəsinin üzvlüyünə daxil olmaq üçün tərəfimizdən müraciət edilib. Məqsəd budur ki, həkimlərimiz tez-tez mötəbər elmi tədbirlərdə iştirak etsinlər, müasir dünya təbabətinin yeniliklərindən faydalana bilsinlər, öz ixtisasları üzrə inkişaf etsinlər.

2016-cı ilin aprelində aparılan əməliyyatlar zamanı tibb xidmətinin yüksək səviyyədə təşkil olunması, yaralıların vaxtında və nöqsansız olaraq müvafiq müalicə müəssisələrinə təxliyəsi, birlik hospitallarında, mobil hospitallarda, eləcə də Baş Klinik Hospitalda aparılan cərrahi əməliyyatların səviyyəsi rəhbərlik tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən xidmətdə fərqlənən tibb xidməti hərbi qulluqçuları mükafatlandırılmışlar.

Bu yaxınlarda aprel döyüşlərində Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva həkimlər haqqında dedi: "Aprel hadisələri zamanı və ondan sonrakı günlərdə Prezident və mən hospitallarda, xəstəxanalarda olduq. O zaman yaralanmış, xəsarət almış əsgərlərimizə yardım göstərən, onların tezliklə sağalması üçün əllərindən gələni edən tibb işçilərimizə minnətdarlığımı çatdırmaq istəyirəm. Yaralanmış əsgərlərin, demək olar ki, əksəriyyəti onların səyləri və əməyi nəticəsində sağalıb və normal həyat tərzinə qayıdıb və bu gün də Vətəni tam gücləri ilə qorumaq üçün hazırdırlar".

Sevindirici haldır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi üzrə işlər qısa zamanda başa çatdırılıb və yaralanmış hərbi qulluqçular artıq müasir protezlərlə təmin olunub.

25 ildən artıq bir müddətdə erməni silahlı birləşmələrinin torpaqlarımızı işğal altında saxlaması, təxribat məqsədi ilə qoşunların təmas xəttində atəşkəsi pozması hərbi qulluqçularımızın tez-tez odlu silahdan yaralanmasına səbəb olur.

Həkimlərimizin, xüsusi ilə də cərrahlarımızın nəzəri və praktiki cəhətdən daha peşəkar hazırlanması üçün bu mövzuda simpoziumlar, konfranslar, o cümlədən beynəlxalq konfranslar keçirilməsi hospital rəhbərliyinin bir vəzifəsidir.

Baş Klinik Hospitalda kursantların, rezidentlərin yüksək səviyyədə hazırlanması üçün bütün imkanlar yaradılıb. Bu imkanlardan maksimum istifadə olunmalı, təlimin və tədrisin səviyyəsi yaxşılaşdırılmalıdır.

Baş Klinik Hospital həm də güclü elm mərkəzidir. Hazırda hospitalda 8 nəfər tibb üzrə fəlsəfə doktoru, Silahlı Qüvvələrin əksər tibbi ixtisaslar üzrə baş mütəxəssisləri çalışır. Bu potensialdan daha məqsədyönlü istifadə olunmalıdır. Hospitalın bugünkü elmi-texniki bazası elmi işlərin, elmi araşdırmaların daha geniş aparılmasına imkan verir. Hospitalda elmi işlə məşğul olanların sayı daha da artacaqdır.

Baş Klinik Hospitalın həkimləri, ümumilikdə tibb heyəti daha təcrübəli olduğundan digər tibbi hərbi hissə və müəssisələrdə, o cümlədən, birlik hospitallarında həkimlər tibbi cihaz və avadanlıqların iş prinsipi, tətbiq sahələri, eləcə də xəstəliklərin müalicə və diaqnostikası üzrə yenilikləri də öyrənirlər.

Qarşıda duran mühüm vəzifələrdən biri də hospitalda mərkəzləşmiş kompüter sisteminin yaradılması və istifadəyə verilməsidir. Bu sistem xəstələrin hərəkətinə, müalicə və diaqnostikasına, ötürülən məlumatların düzgünlüyünə nəzarəti təşkil etməyə daha yaxşı zəmin yaradacaq.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ikinci müalicə korpusunun açılışı zamanı qarşımıza belə bir vəzifə qoydu: "Nəzərə alsaq ki, burada indi ən müasir avadanlıq vardır, əsas məsələ bu avadanlıqdan səmərəli şəkildə istifadə etmək və insanlara yüksək tibbi xidmət göstərməkdir. Hesab edirəm ki, burada ən yüksək standartlar daim saxlanmalı, ən mütərəqqi texnologiyalar tətbiq edilməlidir".

Silahlı Qüvvələrdə xidmət edən bütün tibb heyəti dövlət başçısının və Müdafiə Nazirliyi rəhbərliyinin tapşırıqlarının yüksək peşəkarlıqla, vaxtında icra edilməsi üçün bütün imkanlardan istifadə edərək vəzifələrini layiqincə yerinə yetirəcəkdir.

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# “Bu gün hər sözümüz, hər kəlməmiz Vətəndir!”

*Rubrikamızın qonağı Xankəndidən seçilən millət vəkili Flora Qasımovadır.*



***- Flora xanım, istərdim ki, xalqımızın cəsur oğlu, Azərbaycanın Milli Qəhrəmanı şəhid həyat yoldaşınız polkovnik-leytenant Şirin Mirzəyevlə bağlı maraqlı, yaddaqalan xatirələrinizi qəzetimizin oxucuları ilə bölüşəsiniz.***

- Şirinlə eyni məktəbdə və eyni sinifdə oxumuşuq. Hələ orta məktəb illərindən humanitar elmlərə, ədəbiyyata, tarixə böyük maraq göstərirdi. Onun çox güclü yaddaşı var idi. Dahi şair, satira ustadımız Mirzə Ələkbər Sabirin "Hop-hopnamə"sindəki hansı şeiri soruşsaydın, onu əzbərdən söyləyərdi. Təsadüfi deyil ki, o, Qarabağa - torpaqlarımızın azadlığı uğrunda döyüşlərə gedəndə "Hophopnamə"ni götürüb özü ilə aparmışdı. Cəbhədə onun stolüstü kitabı idi. Şirin hər zaman "Əgər mən hərbçi olmasaydım, o zaman sabirşünas olardım", - söyləyərdi. Daim öz üzərində çalışan, axtarışlarda olan, vəzifəsinə yaradıcı yanaşan bir zabit idi. Onun üçün düzlük, ədalət, səmimiyyət kimi insani xüsusiyyətlər əsas önəm kəsb edirdi. O hər zaman məsuliyyət hissini önə çəkirdi. Bu səbəbdən də Şirin Mirzəyev tutduğu vəzifəyə tələbkarlıqla yanaşırdı. Bu baxımdan Şirin öz ailəsindən, övladlarından, ev-eşiyindən çox xidmət etdiyi hərbi hissədə, şəxsi heyətin yanında olurdu. O, tabeliyində olan əsgərləri öz övladı kimi sevirdi. Çox istərdim ki, hər bir hərbi qulluqçu Şirin Mirzəyev kimi torpaq uğrunda canından keçən vətənpərvər, peşəkar zabitlərimizin döyüş yolunu özlərinə örnək bilsin.

***- Ermənilər zaman-zaman daxili və xarici havadarlarından dəstək alaraq xalqımızın başına min cür müsibətlər gətirib, qətliamlar törədib, torpaqlarımızı işğal ediblər. Bu qədər faciələr yaşayan xalqımızın haqq səsi, Xocalı fəryadı hələ də dünyada yetərincə eşidilmir. Flora xanım, Xankəndidən seçilən bir millət vəkili kimi bu fikrə münasibətinizi öyrənmək maraqlıdır.***

- Xocalı faciəsi, Xocalı soyqırımı tariximizin ən qanlı səhifəsi, qaysaq bağlamayan yarasıdır. Xocalı soyqırımı, eyni zamanda bu faciəni törədən ermənilərin də üzərində qara ləkə kimi daim onları izləyəcək bir hadisədir. Azərbaycanlılar bir əsrdə 4 dəfə etnik təmizləməyə, deportasiyaya, soyqırıma məruz qalıblar. Bunların hamısı Azərbaycanın müxtəlif dövrlərdə Rusiya imperiyasının tərkibində olması üzündən baş verib. Amma bu gün biz artıq müstəqil və öz taleyimizi özümüz həll etməyə qadir bir dövlətik. Çox şükürlər ki, Azərbaycan bu illər ərzində dünyada söz sahibi olan güclü bir dövlətə çevrilməyi bacardı. 20 ildən artıq bir dövrdə Azərbaycan öz müdafiə qüdrətini daha da gücləndirə bildi, beynəlxalq aləmdə nüfuzu artdı. Amma bu illər ərzində ermənilər də işğalçılıq siyasətindən əl çəkməyərək torpaqlarımızda mədəni, dini abidələrimizi yer üzündən silməklə, işğal altındakı rayonların, kəndlərin adlarını erməniləşdirməklə, təbii sərvətlərimizi talamaqla məşğul oldular. Sonuncu qondarma referendumda isə Dağlıq Qarabağın adını Arsax adlandırmaqla bu cinayətin istiqamətini başqa səmtə yönəltmək istəyirlər. Yəni, ümumiyyətlə, Qarabağ sözü işlədilməsindən xoflanan ermənilər hətta bu adı da tarixdən silmək eşqinə düşüblər. Onlar gec-tez başa düşməlidirlər ki, tarixi saxtalaşdırmaqla heç nəyə nail ola bilməyəcəklər. Biz inanırıq ki, dövlətimizin gücü, ordumuzun qələbələri sayəsində öz ata-baba yurdumuza qayıdacağıq.

***- Doğma yurdunun həsrəti ilə yaşayan soydaşlarımızda bu inamı artıran ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu ordu və dövlət quruculuğu siyasətidir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı sərəncam da bu siyasətin bariz nümunəsidir.***

- Hələ ki, Cocuq Mərcanlı kəndi Cəbrayıl rayonunun işğaldan azad edilmiş yeganə yaşayış məntəqəsidir. Yaxşı bilirik ki, 1993-cü ilin oktyabrında Ermənistanın silahlı birləşmələri tərəfindən işğal olunan bu kənd 1994-cü il yanvarın 5-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ordumuzun həyata keçirdiyi uğurlu Horadiz əməliyyatı zamanı Füzuli rayonunun 22 yaşayış məntəqəsi ilə birgə düşmən tapdağından azad edilib. Lakin Lələtəpə yüksəkliyi düşmənin əlində olduğu üçün cocuq mərcanlıların öz evlərinə qayıtması qeyri-mümkün idi. Yalnız ötən ilin aprelində Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində Cocuq Mərcanlıda düşmən təhlükəsi aradan qaldırıldı. Ordumuzun aprel qələbəsi cocuq mərcanlıların böyük sevincinə səbəb oldu. Çünki kənddə həyatın normal axara qayıtması və məcburi köçkünlərin öz ata-baba yurdlarına dönməsi üçün əlverişli şərait yarandı. Cənab Prezidentin sərəncamına əsasən, Cocuq Mərcanlıda bərpa işləri başladı. Birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 4 milyon manat, digər bir sərəncamla isə Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi üçün 4,3 milyon manat vəsait ayrıldı. Hazırda həmin ərazilərdə əsaslı yenidənqurma işləri aparılır. Ölkəmizin müxtəlif rayon və şəhərlərinə səpələnmiş cocuq mərcanlılar artıq geriyə - öz doğma yurd yerlərinə dönməyə hazırlaşırlar. Ordumuzun qüdrəti onlara öz doğma kəndlərinə qayıdıb əmin-aman yaşamalarına stimul yaradır. Əslində, bu kəndin bərpası məcburi köçkün vətəndaşlarımızın doğma yurd yerlərinə qayıdışının başlanğıcıdır.

Azərbaycan Prezidenti dəfələrlə erməni xalqına müraciət edib ki, işğalçılıq niyyətindən yaxa qurtarsın. Əgər normal həyat tərzi keçirmək, normal qonşuluq münasibətləri saxlamaq istəyirsinizsə, bu ədalətsiz problemə son qoyun. Onsuz da mövcud rejim bu problemi həll edən deyil.

***- Ordumuzun aprel döyüşləri barədə nələri demək istərdiniz? Və ötən ilin zirvəsindən Azərbaycanın aprel qələbəsi necə görünür?***

- Sualınıza cavab olaraq ən əvvəl dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin aprel döyüşlərinin əhəmiyyəti barədə səsləndirdiyi fikirlərdən sitat gətirmək istəyirəm: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğala barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərmişdir..." Mən əslən qarabağlı, xankəndliyəm. Qanımla, canımla o torpaqlara bağlı bir insanam. Ölkə rəhbərinin səsləndirdiyi bu fikirlər bizi yeni-yeni qələbələrə ruhlandırır.

Aprel qələbəsi onu göstərdi ki, Azərbaycanda hakimiyyət və xalq arasında sıx birlik mövcuddur. Hər bir vətəndaş dövlətin, Ali Baş Komandanın işğala son qoyulması istiqamətində apardığı siyasəti birmənalı şəkildə dəstəkləyir və hər zaman səfərbər olunmağa hazırdır. Digər tərəfdən, işğalçı ölkə ordusunun "məğlubedilməzliyi" haqqında erməni cəmiyyətinə ötürülən yalan təbliğat - uydurmalar, cəfəngiyyatlar ötən ilin aprelində qısa müddət ərzində darmadağın oldu. Aprel qələbəsi, həmçinin Azərbaycanın əsgər və zabitinin döyüş ruhunu, tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini bir daha göstərdi. Azərbaycan əsgəri mərdliyini, mübarizliyini, qorxmazlığını və döyüşkənliyini təsdiqləməklə bir qəhrəmanlıq məktəbi yaratdı. Aprel döyüşlərində xalqımızın neçə-neçə igid oğlu Vətən yolunda, respublikamızın ərazi bütövlüyü uğrunda canından, qanından keçdi. Onlar əməlləri ilə şəhidlik zirvəsinə ucaldılar. "Torpaq - uğrunda ölən varsa, Vətəndir!" deyirik. Haqq işimiz uğrunda bizim hər birimiz şəhid olmağa hazırıq. Onların məzarları hər bir Azərbaycan vətəndaşının and yeridir. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Aprel şəhidləri qəhrəmanlıqları ilə bir daha təsdiq etdilər ki, Azərbaycan dövləti nəyin bahasına olursa-olsun, işğalçı ölkənin silahlı qüvvələrini torpaqlarımızdan qovacaq və sərhədlərimiz yenidən bərpa olunacaq.

***- Respublikamızın televiziya kanallarında hərbi vətənpərvərliyin təbliğinə necə baxırsınız?***

- Bu gün cənnət Qarabağımız, gözəl Şuşamız, yeraltı, yerüstü sərvətləri ilə zəngin olan Kəlbəcərimiz və digər barlı-bərəkətli tarixi torpaqlarımız düşmən tapdağındadırsa, hər sözümüz, hər kəlməmiz Vətən deməlidir, deyir də. Gənclərimizdə böyük ruh yüksəkliyi var. Bunu görüb çox sevinirəm. Torpağa bağlı, Vətənə bağlı gənc nəsil yetişir. Elm, təhsil sistemində, ümumiyyətlə, cəmiyyətimizdə gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi istiqamətində böyük işlər aparılır. Yəni, bu sahədə uğurlu nəticələrin əldə edilməsi üçün təbliğatı əsas vasitə kimi götürməklə, televiziya, radio, mətbuat və digər kütləvi informasiya vasitələrinin rolu artırılır. Televiziya kanallarında mükəmməl, peşəkar jurnalistlər tərəfindən hazırlanan hərbi vətənpərvərlik mövzusunda verilişlər var. Lakin arzulayardım ki, belə verilişlərin sayı şou poqramların sayından daha çox olsun. Çünki bunu bizdən zaman tələb edir. Tələsməliyik.

***- Söhbətimizin sonunda ənənəvi bir sual: ordumuzun əsgər və zabitlərinə nə arzu edərdiniz?***

- Arzularım çoxdur, hər bir əsgərimizi salamlayıram. Düşmənə dikilən baxışlarınız qılınc kimi iti, kəsərli olsun. O gün olsun ki, torpaqlarımızı düşmən tapdağından azad edib üçrəngli bayrağımızı Şuşamızın, Xankəndimizin ən uca zirvəsinə sancaq və Böyük Qələbəmizi tezliklə birgə qeyd edək.

***- Maraqlı müsahibəyə görə çox sağ olun.***

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Gənclər hərbi xidmətə yollanıblar

*Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq, 2017-ci il aprelin 1-dən etibarən ölkəmizin hər yerində olduğu kimi, Abşeron rayonunda da gənclərin həqiqi hərbi xidmətə çağırışı başlayıb.*

AZƏRTAC xəbər verir ki, aprelin 21-də Abşeron rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Şöbəsinin və Abşeron Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun çağırışçı gənclərinin hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Xırdalan şəhərində yerləşən Heydər Əliyev Parkında təşkil olunan yolasalma mərasimi tədbir iştirakçılarının Ümummilli Liderin abidəsini ziyarəti ilə başlayıb.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi ehtiramla yad olunub.

Abşeron rayon İcra Hakimiyyəti başçısının müavini İlham Quliyev əsgərliyə yola düşən gəncləri təbrik edərək, dövlət müstəqilliyinin qorunmasında, eyni zamanda, gənclərin bir şəxsiyyət kimi formalaşmasında hərbi xidmətin əhəmiyyətindən söz açıb. O, ötən il aprel döyüşlərinin bir daha Azərbaycan Ordusunun qüdrətini sübut etdiyini vurğulayaraq deyib ki, biz ordumuzda çox böyük ruh yüksəkliyinin, Vətən oğullarının qəhrəmanlıqlarının şahidi olduq.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin rəisi Vüsal Babayev hərbi xidmətin hər bir gənc üçün müqəddəs borc olduğunu diqqətə çatdırıb. O, Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edərək əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə hərbi texnikanın sirlərinə dərindən yiyələnəcək, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlar.

Daha sonra valideynlər, müharibə veteranları və ictimaiyyət nümayəndələri çıxış edərək, hərbi xidmətə yola salınan çağırışçılara uğurlar diləyib, onlara Vətən qarşısında borclarını layiqli şəkildə yerinə yetirməyi tövsiyə ediblər.

Gənclər də öz növbəsində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şərəflə qoruyacaqlarına söz veriblər.

Sonra çağırışçı gənclər Azərbaycan Bayrağını öpərək, müqəddəs "Qurani-Kərim"in altından keçib, hərbi marşın sədaları altında böyük ruh yüksəkliyi ilə ordu sıralarına yola düşüblər.

*Vətənpərvərlik*

# “Sabahımız üçün layiqli nəsil yetişdirmək ən ümdə vəzifədir”

*Bu gün məktəb partasında əyləşən yeniyetmə sabahın fəal vətəndaşı, həmçinin Vətəni qoruyan əsgəridir. Gələcəyimizin sahibi olan nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində, heç şübhəsiz ki, məktəblərin pedaqoji kollektivlərinin də üzərinə böyük məsuliyyət düşür. Müəllim hansı fənni tədris etməsindən asılı olmayaraq böyüməkdə olan nəslə milli-mənəvi dəyərlərimizi aşılamalı, öz şagirdinin sabahın layiqli vətəndaşı kimi yetişməsinə töhfəsini verməlidir. Məhz bu baxımdan Azərbaycanın müasir təhsil sistemində vəziyyət ürəkaçandır. Nəinki paytaxt və şəhərlərimizdə, həmçinin bölgələrdə də gələcəyin etibarlı nəslinin yetişdirilməsi üçün məqsədyönlü işlər görülür.*



Cəbhə xəttində yerləşən hərbi hissələrimizdən birində ezamiyyətdə olanda cavabdeh zabitlər Füzuli rayonunun bir sıra məktəblərinin kollektivləri haqqında xoş fikirlərini bölüşdülər. Zabit Seymur Həbibullahov qeyd etdi ki, məktəb kollektivləri ön xətdə əsgərləri ziyarət etmək üçün müntəzəm olaraq komandanlığa müraciət edirlər. Zabitin məlumatına görə, elə bir bayram olmaz ki, hansısa məktəbin kollektivi əsgərlərin görüşünə gəlməsin. "Öncə Füzuli rayon İcra Hakimiyyəti rəhbərliyinin, şəxsən başçı Alı Alıyevin diqqət və qayğısını misal çəkmək istərdim. Elə götürək aprel zəfərinin bu yaxınlarda qeyd edilən ildönümü mərasimini. Bölgənin ictimaiyyəti həmin gün izdihamlı mərasim keçirmişdi. Rayon rəhbərliyinin təşkilatçılığı ilə aprel şəhidlərinin xatirəsinə yaradılmış abidə bu gün hər birimizin and yerinə, müqəddəs ziyarətgaha çevrilib. Hərbi qulluqçularımız daim abidəni ziyarət edərək şəhid olan silahdaşlarına hörmət və ehtiram hisslərini ifadə edirlər".

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş Mahir Səfərovun adını daşıyan Horadiz şəhər 1 saylı tam orta məktəbə gələndə əvvəlcə həyətdə şəhidin abidəsini ziyarət edirik. Abidənin ətrafı yaşıllıqdır, bura xüsusi diqqət yetirildiyi üçün abadlığı ilə göz oxşayır. Məktəbin direktoru, əməkdar müəllim Hafiz Tahirovun açıqlamasından məlum olur ki, bu təhsil müəssisəsinin kollektivi bir çox tədbirləri burada keçirir.

- Məktəbimizin məzunu olan Mahir Səfərov Azərbaycan Ordusunun ilk könüllü döyüşçülərindən idi və 1992-ci ildə torpaqlarımızın işğalçılardan qorunması uğrunda mübarizədə şəhid olub, - deyir direktor. - Hansı sinifdə kimdən soruşsanız, onun haqqında müfəssəl məlumat verə bilər. Çünki şəhidimizin xatirəsini daim yad edirik. Onun ad gününün məktəbdə təntənəli qeyd edilməsi kollektivimizdə dəyərli bir ənənədir. Bundan əlavə, bütün vətənpərvərlik tədbirlərinə, bayram mərasimlərinə şəhid məzunlarımızın valideynlərini dəvət edirik. Şübhəsiz, belə tədbirlər də şagirdlərin vətənpərvərlik tərbiyəsində az rol oynamır. Ümumiyyətlə, sabahımız üçün layiqli nəsil yetişdirmək ən ümdə vəzifəmizdir. Sabahın əsgəri, döyüşçüsü həm də məktəb partasında yetişir. Şagirdlərimizi müntəzəm olaraq hərbi hissəyə aparırıq, onlar əsgər həyatını, əsgərlərin necə xidmət etdiklərini öz gözləri ilə görüb tanış olanda, bu onlara daha xoş təsir bağışlayır.

Ömrünün, demək olar, yarıməsrlik dövrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş təcrübəli müəllimin söhbətinə görə, müasir dövrdə dövlətimizin məqsədyönlü ordu quruculuğu və gənclər siyasəti cəmiyyətimizin vətənpərvərlik ruhunda formalaşması baxımından böyük tərbiyəvi əhəmiyyətə malikdir. "Azərbaycan xalqı xoşbəxtdir ki, müasir inkişafımızın bünövrəsi ümummilli liderimiz Heydər Əliyev tərəfindən möhkəm təməl üzərində qurulub. Dünya şöhrətli siyasətçinin, doğrudan da, müdrik idarəçilik qabiliyyəti vardı. Yaxşı xatırlayıram ki, onun Füzuli bölgəsinə səfərindən sonra həm yerli əhalidə, həm də orduda böyük inam yaranmışdı. Məhz həmin inam o dövrdə də xalqımızı qələbəyə ruhlandırdı. 1994-cü ildə ordumuzun Horadiz əməliyyatında 22 yaşayış məntəqəsi işğaldan azad edildi və insanlar doğma ocaqlarına qayıtdılar. Bu gün də həmin siyasi kurs Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Ötən ilin aprel zəfəri, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaşayış infrastrukturunun bərpa edilməsi barədə dövlət başçısının məlum sərəncamı xalqımızda sabaha olan ümidi, inamı daha da möhkəmləndirib. Biz inanırıq ki, Ulu Öndərin başladığı qurtuluş yolu davam edəcək və Azərbaycan ərazi bütövlüyünü tez bir zamanda təmin edəcəkdir."

Sonra söhbətimizə müəllimlərdən Elza Aslanova, Lalə Hacıyeva və hərbi rəhbər İbrahim Əsgərov qoşulurlar. Mövzu yenə gənc nəslin vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. Hər kəs bir ziyalı olaraq, torpaqlarımızı son qarışına kimi işğaldan azad etməyə qadir olan gəncliyin formalaşması üçün məsuliyyətini qeyd edir. Elza xanımın da fikrincə, Vətənimizə, xalqımıza, yüksək mənəvi dəyərlərə sıx bağlı olan mübariz nəslin yetişməsi dövlətimizin uğurlu siyasi kursunun məntiqi nəticəsidir. "Prezidentimizin rəhbərliyi ilə bu gün ölkəmizdə vətənpərvərlik tərbiyəsinə ciddi fikir verilir və bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan əsgərinə, döyüşçüyə hər yerdə yüksək dəyər verilir. Aprel zəfəri, doğrudan da, tariximizin yeni bir qəhrəmanlıq səhifəsidir. Dövlət başçısının dediyi kimi, bu qəhrəmanlıq dərsliklərə salınmalı və geniş təbliğ edilməlidir."



Hərbi rəhbər, ehtiyatda olan zabit İbrahim Əsgərov isə qeyd edir ki, hərbi hissə komandanlığının köməyi ilə şagirdlərin əsgərlərlə görüşlərinin mütəmadi təşkil edilməsi yuxarı sinif şagirdlərində hərbə marağı daha da artırır. "Hər il məktəbimizin məzunları arasında hərbi peşələri seçənlərin sayı artır. Ordu quruculuğunun davamlı inkişafı, dövlətin əsgərə, zabitə verdiyi yüksək diqqət bu vacib peşənin cəmiyyətdə nüfuzunu gücləndirib. Məktəbimizdə vətənpərvərlik yönümündə tədbirlərin təşkil edilməsi, həmçinin "Şahin" hərbi-idman oyunlarında şagirdlərimizin qazandığı uğurlar da böyüməkdə olan nəslin peşə seçiminə öz təsirini göstərməyə bilməz. Yeri gəlmişkən qeyd edim ki, bu il şagirdlərimiz rayon məktəbliləri arasında “Şahin” hərbi-idman yarışının qalibi olub və zona birinciliyinə vəsiqə qazanıblar".

Fürsət tapıb şagirdlərin bir qrupu ilə görüşüb söhbət edirik. İstər oğlanlar, istərsə də qızlar söhbətdə fəallıq göstərir, öz düşüncələrini bölüşürlər. Əsas xoşuma gələn cəhət isə məktəblilərin aprel döyüşləri barədə kifayət qədər məlumatlı olmalarıdır. Hiss edirsən ki, Azərbaycanın bütün təhsil ocaqlarında olduğu kimi, bu məktəbdə də Silahlı Qüvvələrimizin ötən il qazandığı aprel zəfəri yetərincə təbliğ olunur. Neçə şagird əl qaldırıb bu döyüşlərdə iştirak etmiş zabitlərdən, şəhid döyüşçülərdən danışır. Fədakarlıq nümunələri göstərmiş Elnur Əliyevdən, Rasim Məmmədovdan, başqa neçə döyüşçüdən söz açır, onların Vətən yolunda şəhidliyə yüksəlmələrini özlərinə örnək hesab etdiklərini bildirirlər. Şagirdlərdən kimsə dedi ki, ötən ildən başlanan "Əsgərə məktub" layihəsində fəal iştirak edərək hərbi xidmətdə olan Vətən oğullarına 35 məktub ünvanlayıblar. Bir neçə balaca məktəblinin ifasında Vətəni, qəhrəmanlığı tərənnüm edən şeirlərin səsləndirilməsi də adama xoş duyğular aşılayır. Düşünürsən ki, vətənpərvərlik duyğusu yaşla ölçülmür, hər kəs yaşından asılı olmayaraq Vətənini böyük məhəbbətlə sevə bilər. Bu sevgi isə böyük Qələbəmizi təmin edən ən başlıca amillərdəndir.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
N.PƏNAHOVUNDUR**

# Şəmkirdə “Şahin” hərbi-idman oyunları üzrə zona birinciliyi keçirilib





Şəmkir rayonundakı "N" hərbi hissəsində "Şahin" hərbi-idman oyunları üzrə zona birinciliyi keçirilib.

Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, "N" hərbi hissəsinin zabitləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsinin, rayonun gənclər və idman idarəsinin, təhsil, mədəniyyət və turizm şöbələrinin rəhbərliyi tədbirdə iştirak ediblər.

Çıxış edənlər zona birinciliyində iştirak edən müxtəlif rayonlardan gəlmiş komandaların üzvlərinə uğurlar arzulayıblar. Bildirilib ki, "Şahin" hərbi-idman oyunlarının keçirilməsində əsas məqsəd böyüməkdə olan gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqəti daha da artırmaq, məktəbliləri hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına kömək göstərilməkdən ibarətdir.

"Şahin" hərbi-idman oyunlarında Mingəçevir və Gəncə şəhərləri, Qazax, Tovuz, Ağstafa, Gədəbəy, Göygöl, Daşkəsən, Samux, Qəbələ və Kəlbəcər rayonlarından olan məktəblilər iştirak ediblər.

Yarışın nəticələrinə əsasən, birinci yerə Mingəçevir şəhərinin, ikinci yerə Samux rayonunun, üçüncü yerə isə Qazax rayonunun komandaları layiq görülüblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Əlahiddə Ümumqoşun Orduda yunan-Roma və sərbəst güləş birincilikləri keçirilib

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində Əlahiddə Ümumqoşun Orduda güləş birincilikləri keçirilib.*



Əlahiddə Ümumqoşun Ordunun zabiti mayor Vahid Məmmədovun rəhbərlik etdiyi birincilikdə ədaləti Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının hakimləri qoruyub. Baş hakim Hikmət Hüseynov, beynəlxalq dərəcəli hakim Faiq Hacıyev, respublika dərəcəli hakimlər Alı Quliyev, Sadiq Səfərov və Seymur Məmmədov yarışlara nəzarət ediblər.

Yunan-Roma və sərbəst güləş birinciliklərinin hər birində 8 çəki dərəcəsi üzrə ümumilikdə 17 komandadan 130 pəhləvan döşək üzərində öz gücünü sınayıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Güləş Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdiyi yarış 5 gün davam edib. Qaliblərin müəyyən edilməsi məqsədi ilə keçirilən yarışlarda Heydər Əliyev adına Hərbi Liseyin kursantları da mübarizə aparıblar.

Yunan-Roma güləşi üzrə 59 kq çəkidə leytenant Məmməd Fərəcov, 66 kq çəkidə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Orxan Cabbarlı, 71 kq çəkidə əsgər Murad Orucov, 75 kq çəkidə əsgər Niyaməddin Aydınlı, 80 kq çəkidə əsgər Azər Mirzəyev, 85 kq çəkidə əsgər Rauf Məmmədli, 98 kq çəkidə əsgər Türmən Eyyubov, 130 kq-a qədər çəkidə leytenant Tural Umudov 1-ci yerin qalibi olublar.

Güləşin sərbəst növündə isə 57 kq çəkidə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vəhdət Əsədov, 61 kq çəkidə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ayaz İbrahimov, 65 kq çəkidə əsgər Tural Alıyev, 70 kq çəkidə əsgər Fəxri Əhmədov, 74 kq çəkidə kiçik çavuş Manaf Qəhrəmanov, 86 kq çəkidə əsgər Orxan Şərifov, 97 kq çəkidə əsgər Mehərrəm Kərimov, 125 kq-a qədər çəkidə baş leytenant Cavanşir Yaqubov qalib kürsünün ilk pilləsini fəth ediblər.

Qaliblərə Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Leytenant
Nəriman NƏCƏFOV**

# "Mübariz" snayper tüfəngi

*Müdafiə Sənayesi Nazirliyinin (MSN) istehsal etdiyi 12.7 mm çaplı "Mübariz" snayper tüfəngi Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şərəfinə adlandırılıb. APA-ya MSN-dən verilən məlumata görə, bu yeni silah "İstiqlal" antimaterial snayper tüfəngi ailəsindəndir.*



Müdafiə Sənayesi Nazirliyinin mütəxəssisləri tərəfindən yaradılmış və yerli müəssisələrdə istehsal edilən tüfəng Bakıda 2014-cü ildə keçirilmiş ADEX-2014 I Azərbaycan Müdafiə Sənayesi Sərgisində nümayiş olunub və taktiki-texniki xüsusiyyətlərinə görə ekspertlərin müsbət rəyini qazanıb.

"Mübariz" snayper tüfəngi uzaq məsafədə düşmənin canlı qüvvəsini, yüngül və zirehli personal daşıyıcılarını, döyüş maşınlarını, yerdə park edilmiş aviasiya vasitələrini, bağlı mövqelərini məhv etmək üçün hazırlanıb. Snayper tüfəngi Azərbaycan istehsalı olan optik nişangahla komplektləşdirilib ki, bu da 2 min metr məsafədə hədəflərə atəş açmağa imkan verir.

12.7x108 mm-lik patronlardan atəş açan tüfəng -50, +50 dərəcə temperaturda effektiv istifadə oluna bilər. Çəkisi boş halda 16 kq təşkil edən yarımavtomatik snayper tüfənginin darağının tutumu 7 patron, atış məsafəsi 2 min metr təşkil edir.

**"Azərbaycan Ordusu"**



# Mən əsgərəm!

*Şeirə, poeziyaya maraq duyumla bağlıdır. Bu maraq mütaliə ilə formalaşır. Heç şübhəsiz, Rəhman yeniyetməliyindən şeirə, şeiriyyətə həvəsli olub. Sonralar bu həvəs onun təfəkkürünü "tərpədib" - özü də şeirlər yazıb. Rəhman Abbasov Bakı Dövlət Universitetini bitirib. İndi hərbi xidmətdədir. Nümunəvi əsgərdir. Geniş dünyagörüşə malik olan əsgər Rəhman Abbaszadə imzası ilə şeirlər yazır. Şeirlərin məna tutumu, poetik fikirlər onun incə duyuma malik olduğunu təsdiqləyir. Şairliyi ilə deyil, əsgər olmasıyla qürrələnən Rəhman Abbasovun iki şeirini dərc edirik.*

**"Azərbaycan Ordusu"**

## Yurdum mənim

Səndən güc alıbdır əcdadım, soyum,
Adına bağlıdır şadlığım, toyum,
Sən ey haqq uğurum, sən ey haqq yolum,
Sənə güvənibdir aranım, dağım,
Müqəddəs Vətənim, ana torpağım!

Keçilməz dağları, sıx meşələri,
Qaynar bulaqları, duru gölləri,
Gözəl guşələri dillər əzbəri,
Sevinclə keçəcək hər gözəl çağım,
Müqəddəs Vətənim, ana torpağım!

Sərin bulaqların necə çağladı?
Yellər gülü-gülə necə bağladı?
Düşmənin məmisi dağı dağladı,
Hanı Cıdır düzüm, Şuşa oylağım,
Müqəddəs Vətənim, ana torpağım!

Mətin dayanıblar, nə boran, nə qar,
Getməsə can verər bu yerlərdə sar.
Qəhrəman, hünərli oğulların var,
Dağda dalğalanar şanlı bayrağım,
Müqəddəs Vətənim, ana torpağım!

## Nizami Gəncəviyə

Dünyaya nur saldı böyük dahimiz.
O nuru heyrətlə yaşadırıq biz.
Gözəl hikmət qoydun, hər birimizə,
Qələmlə yaratdı böyük möcüzə.
İndi bu əsərlər - mənim hikmətim,
Bütün kainatda sevilir daim.
"Sirlər xəzinəsi", ey sirli dünya,
Açıqdır qapısı hər oxucuya.
Bu gözəl əsərdə bir elm vardır,
Ən gözəl sirlərin sirri burdadır.
Oldu yer üzünün kəlam heyrəti,
O özü qazandı dünya şöhrəti!..

# İdman

## "Raquf Orucov Kuboku" turnirinə yekun vurulub




Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının dəstəyi və "Judo Club 2012"nin təşkilatçılığı ilə 21 yaşadək oğlanlar və qızlar arasında cüdo üzrə klub komandaları arasında keçirilən "Raquf Orucov Kuboku" beynəlxalq turniri başa çatıb.

Turnirdə Azərbaycandan 10, Rusiya və Gürcüstanın hər birindən bir komanda mübarizə aparıb. Seçmə mərhələnin yekununda Rusiya, Gürcüstan, "Judo Club 2012" idman klubu və "Neftçi" komandaları yarımfinala çıxıblar.

Yarımfinal qarşılaşmalarından sonra Gürcüstan və "Judo Club 2012" komandaları finala vəsiqə qazanıblar.

Maraqlı idman mübarizəsi şəraitində keçən final görüşündə qalib gələn Gürcüstan komandası "Raquf Orucov Kuboku"nun ilk sahibi olub.

## Azərbaycan cüdoçusu Elxan Məmmədov Avropa çempionatının qızıl medalını qazanıb



Polşanın paytaxtı Varşavada keçirilən cüdo üzrə Avropa çempionatında fərdi yarışlara yekun vurulub. Yarışın sonuncu günü Azərbaycan milli komandası aktivinə daha bir qızıl medal əlavə edib.

100 kiloqram çəki dərəcəsində mübarizə aparan Elxan Məmmədov bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub.

Xatırladaq ki, cüdoçumuz 2013-cü ildə dünya çempionu tituluna yiyələnmişdi.

Digər cüdoçularımız - Məmmədəli Mehdiyev (90 kq) və Elmar Qasımov (100 kq) isə beşinci yeri tutublar.

Bununla da, Azərbaycan milli komandası iki qızıl, üç bürünc medal qazanaraq Avropa çempionatını ikinci yerdə başa vurub.

Qeyd edək ki, qitə çempionatının ilk iki yarış günündə Azərbaycan cüdoçularından Hidayət Heydərov (73 kq) qızıl, Orxan Səfərov (60 kq), Nicat Şıxəlizadə (66 kq) və Rüstəm Orucov (73 kq) bürünc medala sahib olub.

## Azərbaycan güləşçisi Qazaxıstanda bürünc medal qazanıb



Qazaxıstanın Çimkənd şəhərində akademik Safarbayevin xatirəsinə həsr olunmuş yunan-Roma güləşi üzrə XXIV beynəlxalq turnirə yekun vurulub.

3 güləşçi ilə turnirdə iştirak edən yığma komandamızın üzvləri 1 bürünc medal qazanıblar. Turnirdə 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Azad Əliyev fəxri kürsüdə yer alaraq turnirin bürünc medalına sahib olub.

## Tbilisidə keçirilən "Sumo-2017"-də daha bir idmançımız medal qazanıb



Tbilisidə keçirilən "Sumo-2017" Avropa çempionatında daha bir idmançımız bürünc medal qazanıb.

85 kiloqram çəki dərəcəsində çıxış edən Namiq Sadiqov dördüncü həlledici görüşdə polşalı idmançıya qalib gələrək üçüncü yerə çıxıb. Bununla da Azərbaycan idmançılarının bu çempionatda medallarının sayı 4-ə çatıb.

**AZƏRTAC-ın
materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Muxtarova Ramilə Elşən qızına 2016-cı ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 141
Nüsxə 4650